# Azərbaycanı dünyaya tanıdan dahi şəxsiyyət

## Yeni Azərbaycan Partiyasının üzvləri Fəxri xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin qurucusu ulu öndər Heydər Əliyevin xatirəsini yad etdilər



12 dekabr müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ölkənin aparıcı siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının yaradıcısı ulu öndər Heydər Əliyevin anım günüdür. Ümummilli Liderin xatirəsi xalqımızın yaddaşına əbədi həkk olunmuş və tariximizdə heç zaman silinməyən izlər qoymuşdur. Ümummilli lider Heydər Əliyevin "Nə qədər ki Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!" fikirləri də onun Azərbaycan dövləti, xalqı qarşısındakı xidmətlərinin aydın ifadəsini yaratmaqla yanaşı, Vətəninə, millətinə bağlılığının təsdiqidir. Ulu Öndər bildirmişdir: "Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır." Bu gün dahi şəxsiyyətin xatirəsini əziz tutaraq, ona ehtiramlarını ifadə etmək üçün Fəxri xiyabana gələn yüzlərlə insan Ulu Öndərin bu sevgisindən, məhəbbətindən geniş bəhs edir, hazırda bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən böyük qürur hissi keçirdiklərini bildirirlər.



Müasir, günbəgün qüdrətlənən, zənginləşən, demokratiya təcrübəsi digər ölkələrə nümunə göstərilən, Cənubi Qafqazın parlayan ulduzu, dünyanın 10 xoşbəxt ölkəsindən biri kimi tanınan və nüfuz qazanan, beynəlxalq münasibətlər sisteminin fəal üzvünə çevrilən, yeni-yeni hədəfə doğru addımlayan, bir sözlə, inkişaf modeli digər ölkələr üçün cəlbedici olan Azərbaycan Ulu Öndərin şah əsəridir. Bu günümüzün uğurlarını düzgün şərh etmək, dəyərləndirmək üçün təbii ki, keçilən yola qısa nəzər salmağa böyük zərurət duyulur. Azərbaycan dövlət müstəqilliyinin 24 ilini arxada qoyub. Bu, zaman baxımından çox da böyük dövr olmasa da, uğurların zənginliyinə görə diqqətçəkəndir. Bu gün Azərbaycanı inkişaf etmiş ölkələr sırasında görmək istəyiriksə, təbii ki, bu, ötən dövrün uğurlarına əsaslanır.

Ulu öndər Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərindən bəhs edərkən Onun xilaskarlıq missiyasının xüsusi qeyd olunması səbəbsiz deyil. Dahi şəxsiyyət 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ilə Azərbaycanı müstəqilliyini itirmək, bir dövlət olaraq dünya xəritəsindən silinmək təhlükəsindən xilas etdi. Bu gün fəxrlə dediyimiz "Güclü, qürətli Azərbaycan hər birimizin qürur mənbəyidir" fikri də möhkəm təmələ əsaslanan siyasətin uğurlarından qaynaqlanır. Ulu öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan beynəlxalq aləmdə yerini və rolunu möhkəmləndirdi, həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün yeni-yeni tribunalar əldə etdi. Azərbaycanın ətrafında yaradılan informasiya blokadası yarıldı, dünya azərbaycanlılarının birliyi, həmrəyliyi daha da möhkəmləndirildi, diaspor hərəkatı gücləndirildi. Azərbaycan qısa müddətdə sabitlik diyarı kimi nüfuz qazandı, iqtisadi əlaqələrin genişləndirilməsi üçün yeni imkanlar yarandı. İstər ikitərəfli, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində qurulan münasibətlər Azərbaycan haqqında dolğun məlumatların əldə olunmasına yol açdı. Müxtəlif mədəniyyətlərin və sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycan beynəlxalq əhəmiyyətli layihələri gerçəkliyə çevirməklə ölkələr arasında dostluq, qardaşlıq əlaqələrinin möhkəmlənməsində körpü rolunu daha da artırır. Bu gün böyük əminliklə qeyd edirik ki, Azərbaycanın iştirakı olmadan bölgədə hansısa iqtisadi və siyasi layihənin həyata keçirilməsi qeyri-mümkündür. Azərbaycan müxtəlif mövzularda beynəlxalq tədbirlərin keçirilməsi üçün ideal məkan kimi qəbul olunur.

Təbii ki, uğurlu başlanğıc növbəti uğurlar üçün təməldir. Azərbaycan xalqı müstəqilliyimizin ilk illərində böyük faciələrlə, çətinliklərlə üz-üzə qalsa da, 1993-cü ildən bəri seçilən düzgün yol, bir-birini əvəzləyən uğurlarımız böyük qürur hissi doğurur, gələcəyə inamı daha da artırır. Hər gün Azərbaycanın tarixinə mühüm hadisə ilə yazılır. Məhz bunun nəticəsidir ki, ölkəmizin 24 ildə 100 ilə bərabər inkişaf yolu keçdiyini beynəlxalq ictimaiyyət də qeyd edir və yüksək dəyərləndirir. Bu uğurlar dövlətin, xalqın həyatında liderin nə kimi rol oynadığına işıq salır.

Azərbaycanın 23 illik müstəqillik tarixinə bələdçilik edən Yeni Azərbaycan Partiyasına milyonların sevgisi, sıralarının kəmiyyət və keyfiyyət baxımından günbəgün möhkəmlənməsi də Heydər Əliyev ideyalarına sədaqətin göstəricisidir. 1992-ci ildə zamanın tələbi, xalqın istəyi ilə yaradılan partiya bu günə qədər seçdiyi yola, tutduğu mövqeyə sadiq olmuş, daim Azərbaycanın çiçəklənməsinə, qüdrətlənməsinə səy göstərmişdir. Dövlətə, xalqa xidməti həyata keçirdiyi siyasətin əsasında saxlayan, populizmdən uzaq olan partiyaya milyonların sevgisi şəksizdir. Yeni Azərbaycan Partiyası bu inamı, sevgini istər sıralarının günbəgün genişlənmməsində, istərsə də ölkədə keçirilən seçki proseslərində xalqdan aldığı böyük dəstəkdə aydın görür. Sözsüz ki, bu inam, dəstək partiyanın yeni-yeni hədəflərə çatmasına stimul verir. Ulu öndər Heydər Əliyev bildirirdi ki, Yeni Azərbaycan Partiyasına xidmət etmək Azərbaycan dövlətinə, xalqına, millətinə xidmət etmək deməkdir. Azərbaycan dövlətçiliyini möhkəmləndirmək, ölkəmizin iqtisadi qüdrətini daha da artırmaq, xalqın rifah halını yaxşılaşdırmaq partiyanın qarşıya qoyduğu əsas hədəflərdəndir.

Yeni Azərbaycan Partiyası böyük sınaqlardan çıxaraq, şərəfli və zəngin yol keçib. Bu yolun bələdçiləri partiyanın sıralarında birləşən üzvləridir. Hər bir üzv Heydər Əliyev ideyalarının həyata keçirilməsinə, irsinin təbliğinə öz töhfəsini verməyə çalışır. YAP-ın üzvlərinin böyük əksəriyyətini gənclərin təşkil etməsi də partiyanın gələcəyinə inamdan, Heydər Əliyev yolunun möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycanın qazandığı nailiyyətlərdən irəli gəlir.

Dahi şəxsiyyət Heydər Əliyev Yeni Azərbaycan Partiyasının sıralarında gənclərin böyük çoxluq təşkil etməsinin vacibliyini bildirirdi. Azərbaycanın müstəqillik yolunda hansı çətinliklərlə üz-üzə qaldığından gənclərin xəbərsiz olduğunu bəyan edən ulu öndər Heydər Əliyev onları məlumatlandırmağın vacibliyini də diqqətə çatdırırdı. Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu kimi tarixə yazıldı.

15 iyun 1993-cü il səbəbsiz yerə Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil olmayıb. Bu tarixin ictimaiyyətə bəlli olan bir açıqlaması var - Azərbaycan xaosdan, anarxiyadan, özbaşınalıqdan, iqtisadi böhrandan xilas oldu. Bugünkü Azərbaycan və onun reallıqları Heydər Əliyev siyasətinin təntənəsidir. Bu gün hər bir Azərbaycan vətəndaşından, xüsusilə Yeni Azərbaycan Partiyasının hər bir üzvündən ölkəmizin uğurlu gələcəyi üçün Prezident İlham Əliyevin ətrafında sıx birləşərək, birgə səyləri artırmaq tələb olunur. Qeyd etdiyimiz kimi, Azərbaycan ötən illərin uğurlarına söykənərək, gələcəyə yeni hədəflərlə irəliləyir. Azərbaycanı inkişaf etmiş ölkələr sırasında görmək əsas məqsədlərdəndir. Son parlament seçkilərinə qatıldığı şüarla məqsəd və məramını nümayiş etdirən Yeni Azərbaycan Partiyası Azərbaycanın daha da qüdrətlənməsi, beynəlxalq nüfuzunun artması yönümündə fəaliyyətini genişləndirir. Yeni hədəflərə nail olmaq partiyanın qarşıdakı illər üçün müəyyənləşdirdiyi prioritetlərdir. Son parlament seçkilərində xalqın böyük dəstəyini qazanan Yeni Azərbaycan Partiyası xalqın partiyası olduğunu bir daha nümayiş etdirdi. Xalqa, dövlətə xidməti fəaliyyətinin əsas istiqaməti kimi qəbul edən partiyaya xalqın sevgisi sonsuzdur. Partiyanın sıralarında birləşən 670 minə yaxın üzvün hər biri Heydər Əliyev ideyalarının gerçəkləşməsinə öz töhfəsini verməyə çalışır.

Heydər Əliyev ideyalarına daim sədaqətini nümayiş etdirən YAP ənənəsinə sadiq qalaraq anım günü ərəfəsində Ulu Öndərin əbədi xatirəsini yad etdi. Dünən Yeni Azərbaycan Partiyasının İcra Katibliyi, İdarə Heyətinin və Siyasi Şurasının üzvləri, partiyanın rayon və şəhər təşkilatlarının sədrləri və fəalları Fəxri xiyabana gələrək dahi şəxsiyyət Heydər Əliyevin məzarı önünə əklil və qızılgül dəstələri qoydular. Görkəmli oftalmoloq alim Zərifə xanım Əliyevanın da xatirəsi yad edildi.

✍ **Yeganə Əliyeva,**
✍ **Vüsal Cahanov,**
**Tural Əhmədov (foto),**
***"İki sahil"***